# Azərbaycan və Ermənistan xarici işlər nazirləri Nyu Yorkda görüşüblər



Sentyabrın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan Nyu York şəhərində BMT Baş Assambleyasının sessiyası çərçivəsində görüşüblər. Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Sammitinin nəticələrinə əsaslanaraq, nazirlər sülh gündəliyinin irəlilədilməsi üçün mümkün növbəti addımlar barədə fikir mübadiləsi aparıblar.

Nazirlər dialoqu davam etdirmək barədə razılığa gəliblər.

Azərbaycan.- 2025.- 24 sentyabr (№ 204).- S.4.